

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

25 sentyabr 2021-ci il
Şənbə

1933-cü ildən çıxır
№ 36 (3549)

# BMT BAŞ ASSAMBLEYASINDA AZƏRBAYCAN HƏQİQƏTLƏRİ

## *Prezident İlham Əliyev: "Azərbaycan təkcə Ermənistanın işğalçı qüvvələrini deyil, həm də erməni faşizmini məğlub edib"*

"Ermənistan keçmişdə işğal altında olan ərazilərimizdə qanunsuz olaraq təbii sərvətlərimizi, o cümlədən qızıl və digər qiymətli metal və mineralları istismar etmiş, onları xarici bazarlara ixrac etmişdir. Tutarlı faktlara əsaslanaraq biz keçmişdə işğal altında olan ərazilərdə Azərbaycanın təbii sərvətlərinin qanunsuz istismarı və digər qanunsuz fəaliyyətlə məşğul olan müxtəlif ölkələrdən olan xarici şirkətləri müəyyən etmişik. Biz artıq həmin şirkətlərə qarşı hüquqi tədbirlərə başlamışıq. Onlar keçmişdə işğal altında olan ərazilərdə təbii sərvətlərimizi qanunsuz istismar etdiklərinə görə məsuliyyətə cəlb ediləcəklər".



Bunu Azərbaycan Prezidenti İlham Əliyev BMT Baş Assambleyasının 76-cı sessiyasının illik ümumi müzakirələrində videoformatda çıxışı zamanı deyib.

Azərbaycan Prezidenti bildirib ki, Birinci Qarabağ müharibəsi nəticəsində 4 minə yaxın vətəndaşımız itkin düşmüşdür: "Ermənistan onların taleyi ilə bağlı bizə məlumat verməlidir. Bizdə olan etibarlı məlumatlara əsasən, onların demək olar ki, hamısı işgəncələrə məruz qalaraq qətlə yetirilib və beynəlxalq humanitar hüquqa zidd olaraq Ermənistan ordusu tərəfindən kütləvi məzarlarda basdırılıb. Ermənistan hərbi cinayətkarları tərəfindən qətlə yetirilmiş 12 mülki şəxsin qalıqları 2021-ci ilin aprel ayında işğaldan azad olunmuş Kəlbəcər rayonunun Başlıbel kəndində kütləvi məzarda tapılıb.

Beynəlxalq hüquq və BMT Nizamnaməsinə əsasən, Ermənistan dövlət səviyyəsində Azərbaycana qarşı hərbi təcavüz və digər ağır cinayətlərə görə məsuliyyət daşımalıdır".

Dövlət başçısı əlavə edib ki, Ermənistanda çevriliş nəticəsində hakimiyyətə gəlmiş və 1998-2018-ci illərdə hakimiyyətdə olmuş səhra komandirləri Azərbaycan ərazilərinin 30 ilə qədər davam edən işğalı ərzində məkrli arzularına və məqsədlərinə çatmaqda uğursuzluğa düçar oldular: "Əksinə, 2017-ci ildə BMT Baş Assambleyasındakı çıxışımda qeyd etdiyim kimi, Ermənistan tam iflasa uğramış dövlətə çevrilib. Ermənistan o dərəcədə zəifləyib ki, heç özü sərhədlərini belə qorumaq iqtidarında deyil.

Ermənistanda hökumət tərəfindən təşviq edilən Azərbaycanofobiya artmaqdadır. Etnik nifrət və düşmənçilik üzərində qurulmuş, erməni cəmiyyətində aşılanan irqçi ideologiya Azərbaycanın Ermənistan tərəfindən keçmiş işğal olunmuş ərazilərində etnik təmizləmənin və misilsiz vandalizmin kökündə durur. Ermənistanda rejim dəyişikliyinə baxmayaraq, ölkədə faşist ideologiyası hökm sürməkdə davam edir. Ermənistanda bütün hakimiyyətlər dövründə "milli qəhrəman"a çevrilmiş nasist general Qaregin Njdenin simasında nasizm vəsf edilir.

Mütərəqqi dünya artan neo-faşizm ilə mübarizə apardığı bir vaxtda, 2016-cı ildə Ermənistanın o vaxtkı prezidenti İrəvanda Qaregin Njdenin heykəlinin açılışını edib. Azərbaycan təkcə Ermənistanın işğalçı qüvvələrini deyil, həm də erməni faşizmini məğlub edib. Biz yenidən öz suverenliyimizə, ərazi bütövlüyümüzə və xalqımızın təhlükəsizliyinə hər hansı bir təhdid görsək, legitim özünümüdafiə hüququmuzdan heç bir tərəddüd etmədən istifadə edəcəyik".

Çıxış zamanı Prezident İlham Əliyev Ermənistanın törətdiyi hərbi cinayətlər barədə də danışıb. Dövlət başçısı diqqətə çatdırıb ki, 44 gün ərzində Ermənistan silahlı qüvvələri cəbhəboyu ərazilərdə yerləşən rayonlarımızı və şəhərlərimizi – Ağdam, Ağcabədi, Beyləqan, Daşkəsən, Füzuli, Goranboy, Tərtəri intensiv şəkildə atəşə tuturdu: "Ermənistan, həmçinin cəbhə bölgəsindən uzaqda yerləşən Gəncə, Bərdə, Mingəçevir, Qəbələ, Siyəzən, Xızı və digər şəhərləri də atəşə tuturdu. Raketlərdən biri Azərbaycanın hava hücumundan müdafiə qoşunları tərəfindən Bakının yaxınlığında yerləşən Xızı üzərində zərərsizləşdirilmişdir. Bu isə onu göstərir ki, paytaxt Bakı da Ermənistanın raket hücumlarının hədəfi idi. Ermənistan "Skad" və "İsgəndər-M" tipli ballistik raketlərdən, habelə qadağan olunmuş ağ fosforlu və kaset tipli sursatlardan istifadə edirdi. Ermənistanın bu hərbi cinayətləri nəticəsində 100-dən çox dinc sakin, o cümlədən 11 uşaq qətlə yetirilib, 450 nəfərdən çox insan yaralanıb. Azərbaycan ərazisində 12 min mülki infrastruktur obyekti, o cümlədən fərdi evlər dağıdılıb və ya onlara ciddi zərər dəyib".

# DAXİLİ İŞLƏR NAZİRLİYİNDƏ KOLLEGİYA İCLASI KEÇİRİLİB





**Sentyabrın 24-də Daxili İşlər Nazirliyində axtarış işinin, müvəqqəti saxlama yerlərində xidmətin təşkili, orqan və hissələrdə qanunçuluğun təmini üzrə fəaliyyətin nəticələrinə həsr olunmuş onlayn formatda Kollegiya iclası keçirilib.**

İclası giriş sözü ilə açan daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov öncə əməliyyat-xidməti fəaliyyətin nəticələrinə toxunaraq cari ilin 8 ayında cinayətlərin 85,3 faizinin açıldığını, qəsdən adam öldürmələrin, adam öldürməyə cəhdlərin, qəsdən sağlamlığa ağır zərər vurmaların, oğurluqların, soyğunçuluqların, quldurluqların, avtonəqliyyat vasitəsini qaçırmaların, qrup halında və odlu silahın tətbiqi ilə törədilən hüquqazidd əməllərin ötən ilin 8 ayı ilə müqayisədə xeyli azaldığını, qanunsuz dövriyyədən 1 ton çox, yəni 2,5 tona yaxın narkotik vasitənin çıxarıldığını, bu cinayətlərə görə 3634 nəfərin məhkəmə məsuliyyətinə cəlb edildiyini və başqa müsbət nəticələrin əldə olunduğunu diqqətə çatdırıb. Eyni zamanda, kriminogen duruma təsiri, vətəndaş məmnunluğuna nail olunması, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi baxımından Kollegiyanın müzakirəsinə çıxarılan hər üç məsələnin aktual olduğunu bildirib.

İclasın gündəliyi üzrə Baş Cinayət Axtarışı İdarəsinin rəisi, polis general-mayoru Arzu Daşdəmirov, Baş İctimai Təhlükəsizlik İdarəsinin rəisi, polis general-mayoru Oqtay Kərimov və Daxili Təhqiqatlar İdarəsinin rəisi, polis polkovniki Elman Qasımov məruzə ilə çıxış edərək həyata keçirilən tədbirlərdən, əldə edilmiş nəticələrdən, eləcə də xidməti fəaliyyətdə mövcud olan çatışmazlıqlardan və onların aradan qaldırılması üzrə planlaşdırılan tədbirlərdən danışıblar.

Müzakirə olunan məsələlər ətrafında da bir sıra ərazi orqanlarının rəisləri çıxış edərək görülmüş işlər və mövcud nöqsanların aradan qaldırılması üzrə həyata keçirilən tədbirlər barədə məlumat veriblər.

Kollegiya iclasına yekun vuran general-polkovnik Vilayət Eyvazov hər üç məsələ ilə bağlı qarşıda duran vəzifələri müəyyən edərək konkret tapşırıqlar verib, həmçinin əmin olduğunu bildirib ki, daxili işlər orqanlarının şəxsi heyəti bundan sonra da qanunvericiliklə müəyyən edilmiş funksiyaları layiqincə həyata keçirəcək, ölkədə sabitliyin, əmin-amanlığın davamlılığının təmin edilməsi üçün qüvvə və bacarığını əsirgəməyəcəkdir.

# YAŞI ƏSRİ HAQLAYAN TƏHSİL OCAĞI

100

## Nazir Vilayət Eyvazov: "Dövlətçiliyə, Vətənə və xalqa sadiq Azərbaycan Polisinin yetişməsində Polis Akademiyasının xüsusi rolu var"

***Sentyabrın 22-də Daxili İşlər Nazirliyinin Polis Akademiyasının yaranmasının 100 illiyi münasibətilə Polis Akademiyasında təntənəli mərasim keçirilib.***

***Tədbirin əvvəlində ümummilli lider Heydər Əliyevin, respublikanın suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə və xidməti vəzifələri yerinə yetirərkən həlak olmuş polis əməkdaşlarının və Daxili Qoşunların hərbi qulluqçularının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının dövlət himni səsləndirilib.***

***Nazir, general-polkovnik Vilayət Eyvazov Polis Akademiyasının təsis edilməsinin 100 illik yubileyi münasibətilə onun şəxsi heyətini, məzunlarını, veteranlarını təbrik edib.***











Akademiyanın keçdiyi şərəfli yola nəzər salan V.Eyvazov bildirib ki, 1921-ci ildə milis nəfəri və komandir kadrları hazırlayan məktəb statusunda yaradılmış bu tədris müəssisəsi Akademiya səviyyəsinə qədər yüksəlib, ulu öndərin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə böyük inkişaf yolu keçib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müxtəlif illərdə Akademiyada keçirilən təntənəli mərasimlərdə iştirak etdiyini, zəruri göstərişlər verdiyini, diqqət və qayğısı sayəsində bu təhsil müəssisəsinin maddi-texniki bazasının, tədris prosesinin əhəmiyyətli şəkildə təkmilləşdiyini diqqətə çatdırıb. Müəllim və kursantların istifadəsinə müasir tədris korpusları və texnoloji avadanlıq, yeməkxana və yataqxanalar, idman kompleksi, virtual təlim otaqları, poliqon, zəngin fondu olan elektron kitabxana, xarici dil mərkəzi, konfrans zalı verildiyini vurğulayıb.

Beynəlxalq əlaqələrinin ildən-ilə genişlənərək xarici ölkələrin 20-dən çox xüsusi təyinatlı təhsil müəssisəsi ilə əməkdaşlıq həyata keçirdiyini, tədris prosesində informasiya texnologiyalarından geniş istifadə olunduğunu, xüsusi metodlara və interaktiv təlimə üstünlük verildiyini, kursantlara vətənpərvərlik hissi, zabit qüruru, saf mənəviyyat aşılandığını, bütün bunların mütəxəssis hazırlığını şərtləndirən mühüm amillər olaraq cinayətkarlıqla mübarizədə, ictimai asayişin qorunmasında, insan hüquq və azadlıqlarının müdafiəsində müsbət nəticələrin əldə olunmasına zəmin yaratdığını bildirib.

Azərbaycan Polisinin peşəkar, milli ruhda tərbiyə olunmuş, dövlətçiliyə, Vətənə və xalqa sadiq bütöv bir nəslinin ərsəyə gəlməsində Polis Akademiyasının da əhəmiyyətli rolunu xüsusi vurğulayan nazir diqqətə çatdırıb ki, ötən 100 ildə bu təhsil müəssisəsinin məzunlarının ümumi sayı təxminən 25 min nəfər təşkil edib və bu gün daxili işlər orqanları üzrə şəxsi heyətin 82 faizi ali təhsilli hüquqşünaslardır. Məzunlardan 25 nəfəri ali rütbələrə, 12 nəfəri (6-sı ölümündən sonra) Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

Çıxışında professor-müəllim heyətinin qarşısında duran vəzifələrə xüsusi yer verən nazir bildirib ki, onlardan başlıcası Azərbaycanın ali təhsil müəssisələrinin sırasında layiqli yeri olan Akademiyanı, buradakı tədris və təlim prosesini qabaqcıl beynəlxalq təcrübə əsasında inkişaf etdirmək, polisdə xidmətin bütün şərtlərinə cavab verən ixtisaslı kadr hazırlığı fəaliyyətini hərtərəfli dəstəkləmək, kursant və dinləyicilərdə analitik düşüncə tərzi, müasir texnologiyalarla işləmək, ekstremal şəraitdə düzgün qərar çıxarmaq və tədbirlər görmək vərdişi formalaşdırmaq, möhkəm intizamın təməli sayılan hərbi, fiziki və sıra hazırlığını yüksəltmək, hər bir fənnin tədrisi prosesində qanunla müəyyən edilmiş funksiyaların icrasını vətəndaş məmnunluğu prinsipi üzərində qurmağı öyrətmək, zəruri biliklərə və iş metodlarına yiyələndirmək, yeni təsis olunmuş magistratura və doktorantura pillələrində Akademiya, bütövlükdə daxili işlər orqanları üçün elmi potensiallı mütəxəssislər yetişdirməkdir.

Mərasimdə həmçinin, Polis Akademiyasının rəisi, polis polkovniki Canpolad Daanov çıxış edərək planlaşdırılan və görülmüş işlər, əldə edilmiş nəticələr və qarşıya qoyulmuş vəzifələrin icrası barədə məruzə edib.

Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov əvvəlki illərdə Akademiyaya rəhbərlik etmiş polis veteranlarını da təbrik edərək onlara Akademiyanın 100 illiyi münasibətilə hazırlanmış döş nişanlarını təqdim edib.

Təntənəli mərasim Akademiyaya yeni qəbul olunmuş kursantların andiçmə mərasimi və şəxsi heyətin tribuna önündən keçidi ilə başa çatıb.

---

# Nəticələr təhlil olunub

## Birgə mübarizə ilə tədbirlər davam etdirilir

**2021-ci ilin yanvar-avqust ayları ərzində aidiyyəti orqanlar tərəfindən narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı aparılmış mübarizə tədbirlərinin nəticələri Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunda təhlil olunaraq ümumiləşdirilmişdir.**



Cari ilin 8 ayı ərzində hüquq mühafizə orqanları tərəfindən narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində həyata keçirilmiş kompleks əməliyyat-axtarış tədbirləri nəticəsində narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı ümumilikdə 5963 cinayət faktı aşkarlanmışdır. Onlardan 2181-i narkotik vasitələrin qanunsuz satışı, 3376-sı satış məqsədi olmadan narkotik vasitələrin qanunsuz əldə edilib saxlanılması, 328-i qanunsuz olaraq narkotik xassəli bitkilərin kultivasiya edilməsi, 78-i isə bu kateqoriyadan olan digər cinayətlərlə bağlı olmuşdur.

Aşkarlanmış faktlar üzrə qanunsuz dövriyyədən ümumilikdə müsadirə olunmuş 4 ton 432 kiloqram 105 qram narkotik vasitələrin və psixotrop maddələrin 2 ton 403 kiloqram 172 qramını heroin, 1 ton 013 kiloqram 540 qramını marixuana, 285 kiloqram 846 qramını tiryək, 71 kiloqram 931 qramını həşiş, 89,679 qramını kokain, 5327 ədədini metadon, 177 kiloqram 684 qramını digər narkotik vasitələr və 479 kiloqram 842 qramını psixotrop maddələr təşkil etmişdir.

O cümlədən, göstərilən dövr ərzində narkotik xassəli bitkilərin kultivasiya edilməsi ilə bağlı 45 min 600 ədəd çətənə və xaş-xaş bitkilər aşkar edilmişdir.

Həmçinin narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə əlaqədar həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində ümumilikdə 3696 nəfər cinayət məsuliyyətinə cəlb edilmişdir.

Göstərilən dövr ərzində hüquq mühafizə orqanları tərəfindən narkotik vasitələrin və psixotrop maddələrin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsi ilə bağlı 241 fakt aşkar edilmişdir ki, həmin faktlar üzrə 2 ton 046 kiloqram 571,315 qram narkotik vasitə və psixotrop maddə müsadirə edilmişdir. Aşkar edilmiş cinayətlərin 260-ı qrup halında törədilmiş və həmin faktlar üzrə qanunsuz dövriyyədən 1 ton 401 kiloqram 120,574 qram narkotik vasitə,17 kiloqram 299 qram psixotrop maddə və 142,8 qram güclü təsir edən maddə müsadirə edilmişdir.

2021-ci ilin 8 ayı ərzində Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin və digər aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə çəkisi 171 ton 067 kiloqram 903 qram olan yabanı halda bitmiş narkotik tərkibli bitkilər müəyyən olunaraq müvafiq qaydada məhv edilmişdir.

*Natiq Cavadov,*
*polis mayoru*

# Atadan oğula qalan miras

## Vətənə sevgi, xalqa xidmət və anda sadiqlik

**İctimai asayişi qorumaqla, cinayətkarlıqla mübarizə aparmaqla yanaşı Vətən çağıranda sinəsini səngər edib onu qoruyur Azərbaycan Polisi.**

Birinci Qarabağ savaşında tariximizə əbədi həkk olunan qəhrəmanlıqlara imza atan polisin keçdiyi döyüş yolunun son duracağı II Vətən savaşından sonra Şuşa oldu. Könlümüzdə taxt quran mənəvi paytaxt şəhərimizi düşməndən azad etdik. Bu gün orada ataları bir zamanlar Şuşa uğrunda döyüşən həmkarlarımızın, soydaşlarımızın oğulları xidmət aparırlar.

Beləcə Vətənə xidmət atadan oğula keçən, bir növ nəsildən-nəsilə ötürülən müqəddəs bir amala çevrilir. **Polis baş serjantı Əziz Azər oğlu Məmmədov** da atasının yarım qalan qəhrəmanlıq yolunu davam etdirir.

O, 1987-ci ildə Bakıda doğulub. Nərimanov rayonundakı 291 saylı Araz ekologiya liseyini bitirdikdən sonra Bakı Biznes Universitetinə daxil olub. Hərbi xidmətini başa vurduqdan sonra bir şəhid polis övladı kimi daxili işlər orqanlarında xidmət etmək arzusu ilə Daxili İşlər Nazirliyinə müraciət edib. İllər sonra atasının sıramızda boş qalan yerindən onun boyu görünür.



Həmkarımız 2007-ci ildən **Baş İctimai Təhlükəsizlik İdarəsinə bilavasitə tabe olan Diplomatik Nümayəndəliklərin Mühafizəsi üzrə Əlahiddə Polis Taborunun Komendant Taqımında xidmət edir.** Yaradılan şəraitdən və şəhid övladı kimi ona göstərilən diqqət və qayğıdan minnətdarlıq hissi ilə danışır. Ünvanladığımız sualların cavabının hər birinin sonu "Vətən sağ olsun!" ilə bitir. Bu ifadə çoxumuzun leksikonunda özünə yer eləməsə də şəhid ömür-gün yoldaşları və şəhid övladları onun çəkisini də, dəyərini də yaxşı bilirlər. O, atasını kölgə kimi, duman kimi xatırlayır. Onun haqqında keçmiş zamanda danışmır. Özü dediyi kimi:"Axı qəhrəmanlar ölmürlər"...

"Yadımdadır, uşaq ikən atamın işdən gəlməyini səbrsizliklə gözləyirdim. Uzaqdan onun parıldayan paqonlarını görəndə qabağına qaçıb, qucağına atılırdım. Onun vətənpərvərliyi, cəsurluğu mənə bir həyat məktəbi oldu"...

Çox qəribədir. Şəhid övladları ilə ünsiyyət qurmaq ilk baxışdan çətin görünsə də bir kiçik xatirə yetər ki, bir ömrün salnaməsi xatırlansın, yada düşsün. Torpağa qovuşan oğulların xatırlanması, anılması ondan xəbər verir ki, bu torpaqda iz qoyanların adı hələ uzun illər bundan sonra da yada düşəcək, adları dillərdə dastan olacaqdır.

**Kiçik bir xatırlatma:** *Polis baş serjantı, şəhid Azər Əziz oğlu Məmmədov 15 mart 1964-cü ildə Bərdə şəhərində doğulub. 1991-ci ildən Bərdə rayon daxili işlər şöbəsində xidmətə başlayıb. Düşmən torpaqlarımıza göz tikəndə minlərlə həmkarımız kimi silaha sarılıb, Vətəni qoruyub. Ağdərənin Marquşavan kəndinin müdafiəsində şəhidlik zirvəsinə ucalıb. 26 fevral 1992-ci ildə Xocalı faciəsi günü Bərdənin ilk şəhidi olaraq torpağa tapşırılıb.*

*"Polis"*

# "Polis" onların qonağı oldu

**Bugünlərdə "Polis" qəzetinin əməkdaşları təqaüddə olan polis general-mayoru Kamil Məmmədov və Azərbaycanın Əməkdar jurnalisti Nadejda İsmayılovanın qonağı oldular.**



Nadejda İsmayılova müstəqilliyimizin ilk illərində və ondan sonrakı dövrdə də Azərbaycan Polisinin, sözün əsl mənasında, dövlətçiliyimizin dayaqlarından birinə çevrildiyini vurğulayıb, ön cəbhədə düşmənlə, arxa cəbhədə isə cinayətkarlıqla qətiyyətli mübarizəsini diqqətə çatdırıb.

Qeyd edib ki, 1-ci Qarabağ müharibəsində xalqımızın soyqırıma, torpaqlarımızın erməni təcavüzünə məruz qaldığı o günlərdə informasiya blokadasını yararaq baş verənləri dünya ictimaiyyətinə çatdırmaq üçün jurnalistlər cəbhə bölgəsində idilər. Məhz o çətin günlərdə onların təhlükəsizliyinin təmin edilməsində də polisin danılmaz rolu olub.

Əməkdar jurnalist insan hüquq və azadlıqlarının qorunmasında polisin roluna xüsusi diqqət çəkib: "Bu gün Azərbaycan dünyanın multikultural dəyərlərə hörmətlə yanaşan ən tolerant ölkəsidir. Yaradılan sabitliyə və əmin amanlığa görə biz hüquq mühafizə orqanlarına, xüsusilə də Azərbaycan Polisinə borcluyuq. Sabitlik bizim sərvətimizdir. Onu qorumaq hər birimizin borcudur və bu işdə biz vətəndaşlar da polisə yaxından kömək etməliyik".

DİN-ə ünvanladığı təşəkkür məktubunun qəzetdə öz əksini tapdığına görə də bir qələm adamı kimi o, məmnunluğunu bildirib.

"Bu gün "Polis" qəzetində respublikanın aparıcı mətbu orqanları ilə ilk sıradadır və geniş oxucu rəğbətini qazanıb. Qəzetdə daxili işlər orqanlarının əməkdaşlarının keçirdikləri uğurlu əməliyyatlarla yanaşı, ölkə gündəmi, möhtərəm prezidentimizin uğurlu siyasəti ilə bağlı informasiyalar, publisistik məqalələr yer alır. Həmçinin xidmətdə fərqlənən əməkdaşlar haqqında ümumi yazılar və digər rəngarəng mövzular da oxunaqlığı ilə seçilir", - deyən polis general-mayoru K.Məmmədov qəzetin əməkdaşlarına çətin və məsuliyyətli fəaliyyətlərində uğur arzulayıb.

Sonda xatirə şəkli çəkdirilib.

*"Polis"*

# ZƏRİF, HƏM DƏ GÜCLÜ

## Polis övladı qaliblər sırasında

**Ölkəmizin beynəlxalq miqyasda tanınmasında idmanın rolu danılmazdır. İdmanın ümummilli hərəkata çevrilməsi, inkişafı gələcək nəslin sağlam, vətənpərvər ruhda böyüməsinə xidmət edir. Yeri gəlmişkən, sıralarımızda beynəlxalq arenalarda uğurlara imza atmış yüzlərlə idmançı polis, eləcə də onların övladları var.**



Bu dəfəki qəhrəmanımız **polis polkovnik-leytenantı Emil Rzayevin qızı, DİN İdman Cəmiyyətinin yetirməsi Emili Rzayevadır.** Yaşının az olmasına baxmayaraq o, idman karyerasında yeniyetmələr arasında dünya və Avropa çempionu adına layiq görülüb.

Bugünlərdə E.Rzayeva mükafatları siyahısına daha birini əlavə edib. Belə ki, yetirməmiz Rusiyanın Kazan şəhərində MDB ölkələri arasında keçirilən açıq idman oyunlarında qüvvəsini sınayıb. İdmanın boks növü üzrə 63 kiloqram çəki dərəcəsində rinqə çıxan təmsilçimiz ilk görüşdə rusiyalı rəqibindən üstün olub. Qazaxıstan idmançısına 3:0 hesabı ilə qalib gələn zərif güclümüz finala gedən yolda büdrəyib. Üçüncü yer uğrunda çətinliklə keçən döyüşün sonunda isə sevinən tərəf olub.

*Teymur Əlizadə,*
*polis mayoru*

# Onlar bizə yadigardır





**Yeni tədris ilinin başlanması münasibətilə Zaqatala, Ucar və Siyəzən Rayon Polis şöbələrinin əməkdaşları torpaqlarımızın azadlığı uğrunda canlarından keçən şəhidlərimizin ailələrini ziyarət ediblər.**




Görüşlərdə şəhidlərimiz rəhmət və ehtiramla anılıb, onların əziz xatirəsinin xalqımız tərəfindən daima əziz tutulduğu qeyd olunub. Şəhid ailələrinin, qazilərin, müharibə veteranlarının sosial müdafiəsinin gücləndirilməsinin, hər cür qayğı ilə əhatə olunmasının ölkə rəhbərliyi tərəfindən həyata keçirilən siyasətin əsas istiqamətlərindən biri olduğu diqqətə çatdırılıb.

Gələcəyimiz olan uşaqlara məktəbli forması, çanta və gündəlik dərs ləvazimatları hədiyyə edən asayiş keşikçiləri onlara təhsildə uğurlar arzulayıblar.

# Uğur əldə etmək üçün

## Həmkarlarımızın fiziki və peşə hazırlığı diqqət mərkəzindədir

Bugünlərdə DİN-in İdman Cəmiyyətində şəxsi heyətin fiziki və döyüş hazırlığının gücləndirilməsi məqsədilə virtual seminar-məşğələ keçirilib.

Seminarda DİN Baş Kadrlar və DİN Baş İctimai Təhlükəsizlik İdarələrinin, DİN Şəxsi Heyətlə İş İdarəsinin, o cümlədən DİN-in İdman Cəmiyyətinin əməkdaşları iştirak ediblər.

Seminarı giriş sözü ilə açan **DİN İdman Cəmiyyətinin sədr müavini, polis polkovniki Elçin Rüstəmov** bildirib ki, tədbirin keçirilməsində əsas məqsəd daxili işlər orqanlarında xüsusi fiziki hazırlıq təlimlərinin təşkili, bu sahədə mövcud nöqsanların təhlili və aradan qaldırılmasıdır.



Qeyd edilib ki, DİN rəhbərliyinin müvafiq əmrinə əsasən paytaxtda və yerlərdə yaşından asılı olmayaraq hər bir əməkdaşın fiziki və peşə hazırlığına nəzarət gücləndirilib.

Çıxış edənlər asayişin qorunmasında, sabitliyin təminində, cinayətkarlıqla qətiyyətli mübarizədə, eləcə də xidmət ili ərzində əməkdaşların məharət dərəcələri əldə etmələri, vəzifədə irəli çəkilmələri üçün fiziki cəhətdən hazırlıq səviyyəsinin yüksək olmasının əsas şərtlərdən biri olduğunu diqqətə çatdırıblar.

Polis polkovniki E.Rüstəmov neçə-neçə tanınmış idmançılar nəsli yetişdirən DİN-in İdman Cəmiyyətinin əməkdaşlarının hər bir polis əməkdaşına əməli köməklik göstərməyə, qarşıya çıxan çətinlikləri aradan qaldırmaq üçün məsləhət və tövsiyə verməyə hazır olduğunu vurğulayıb.

Görüş qarşılıqlı müzakirələrlə davam etdirilib.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

# Monitorinqlər nəticəsində...



15-23 sentyabr tarixlərində Daxili İşlər Nazirliyinin, Qida Təhlükəsizliyi Agentliyinin və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin nümayəndələri Bakı şəhərində və respublika ərazisində 67 toy şənliyinin monitorinqini həyata keçirib.

Monitorinqlər 56 şadlıq sarayında, 11 şəxsi həyətyanı sahədə keçirilən şənlikləri əhatə edib.

Monitorinqlər nəticəsində toy şənliklərinin keçirilməsində xüsusi karantin rejimi qaydalarını pozduqlarına görə:

- 18 nəfər İnzibati Xətalar Məcəlləsinin 211-ci (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması) maddəsinə əsasən cərimə olunub;
- 159 nəfər "COVID-19" pasportu olmadığına görə şənliyə buraxılmayıb.

*Natiq Cavadov*

## GÜCLƏRİNİ SINADILAR...



Sentyabrın 18-də Olimpiya Stadionunda Bakı Şəhər Baş Polis İdarəsinin Dövlət Yol Polisi İdarəsinə bilavasitə tabe olan Yol Patrul Xidməti Alayının əməkdaşları arasında idmanın güc çoxnövçülüyü üzrə yarış keçirilib.

Turnirdə 34 əməkdaş gücünü sınayıb. Onlar turnik və paralel qollarda dartınma hərəkətləri yerinə yetiriblər.

Yarışla bağlı "Polis"ə məlumat verən **Bakı şəhər BPİ DYP İdarəsinə bilavasitə tabe olan YPX Alayının Qərargahının fiziki hazırlıq üzrə baş inspektoru, polis polkovnik-leytenantı Emil Rzayev** bildirib ki, yekun nəticələrə görə 90 kiloqrama qədər çəki dərəcəsində I yerdə inspektor, polis baş serjantı Toğrul Quliyev, II yerdə inspektor, polis serjantı Sənan Ədilzadə, III yerdə baş inspektor, polis mayoru Mübariz İsmayılov qərarlaşıblar.

90+ kq çəki dərəcəsində isə 1-ci yerə baş inspektor, polis leytenantı İlkin Əsədov, 2-ci yerə baş növbətçi inspektoru, polis leytenantı Babək Bağırlı, 3-cü yerə inspektor, polis baş serjantı Tural Həmidov layiq görülüblər.

Qaliblərə diplom, medal və kubok təqdim olunub.



Qeyd edək ki, yarışa Azərbaycan Strongman Federasiyasının mütəxəssisləri nəzarət ediblər.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

**BNMİ əməkdaşlarının** daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Hamuşam kənd sakini, əvvəllər məhkum olunmuş A.Həbibov Astara rayonu ərazisində saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan 75 qram tiryək və plastik kart aşkar edilmişdir. Davam etdirilən tədbirlərlə onun evinə baxış zamanı oradan 12 kiloqramdan artıq heroin, 910 qram tiryək, 2 kiloqramdan artıq heroin, metamfetamin və elektron tərəzi götürülmüşdür.

◆◆◆

**Yasamal RPİ 28-ci Polis Bölməsinə** sentyabrın 16-da rayon ərazisində 2 nəfərin F.Dəmirova zor tətbiq edərək 400 manatını almaları barədə məlumat daxil olmuşdur.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində soyğunçuluq əməlini törətməkdə şübhəli bilinən, əvvəllər məhkum olunmuşlar Ağdam rayon sakini R.Səfərov və Gəncə şəhər sakini C.Aslanov müəyyən edilərək saxlanılmışlar. Araşdırma aparılır.

◆◆◆

**Lənkəran ŞRPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində şəhər sakini, əvvəllər məhkum olunmuş M.Qasımov narkotik vasitə satarkən saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan 25 qram heroin və 6 qram metamfetamin aşkar edilmişdir. Davam etdirilən tədbirlərlə onun evinə baxış zamanı oradan 1 kiloqramdan artıq heroin götürülmüşdür.




◆◆◆

**Bərdə RPŞ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində Koroğlu küçəsində yaşayan, əvvəllər məhkum olunmuş R.Quliyevin evinə baxış zamanı oradan 8 kiloqram 895 qram marixuana aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Siyəzən RPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində sentyabrın 20-dən 23-dək olan müddətdə Qarabulaq kəndində yerləşən "Siyəzənneft" Neft-Qaz Çıxarma idarəsinə məxsus ərazidən 21 min 474 manat dəyərində 2 min 980 metr dəmir boru və 5 min 810 metr naqil oğurlamaqda şübhəli bilinən Siyəzən sakini, əvvəllər məhkum olunmuş H.Muradov saxlanılmışdır.

## KORONAVİRUS XƏSTƏLƏRİ SAXLANILIB

Karantin rejimi tələblərinin təmin edilməsi, koronavirus infeksiyanın ölkə ərazisində yayılmasının və törədə biləcəyi ağır fəsadların qarşısının alınması məqsədilə daxili işlər orqanlarının əməkdaşları İzahedici söhbətlər aparıldıqdan sonra tibbi prosedurlar gözlənilməklə onlar yaşadıqları ünvanlara qaytarılıb və bu barədə müvafiq səhiyyə qurumları məlumatlandırılıb.



paytaxt ərazisində, eləcə də bölgələrdə nəzarət-profilaktik tədbirləri davam etdirirlər.

Sentyabrın 15-dən 23-dək olan müddətdə polis əməkdaşları tərəfindən 40 nəfər aktiv koronavirus xəstəsi ictimai yerlərdə aşkar edilərək saxlanılıb.

Ev şəraitində müalicə təyin edilməsinə baxmayaraq, yaşayış yerini tərk edən 9 nəfər barəsində isə Cinayət Məcəlləsinin 139-1.1 (Epidemiya əleyhinə və karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanılıb.

## "İfşa" davam edəcək



Azərbaycanda ilk dəfə olaraq polislərin fəaliyyətindən bəhs edən "İfşa" adlı serial bu mövsüm də ekranlarda olacaq. İnsan alveri və narkomaniya ilə mübarizədən bəhs edən serial Daxili İşlər Nazirliyinin təşkilatı dəstəyi ilə ATV telekanalında yayımlanırdı. Qeyd edək ki, ötən mövsüm üçün 6 bölümü çəkilən ekran işinin məsləhətçisi **daxili işlər nazirinin birinci müavini, polis general-leytenantı Seyfulla Əzimov, ideya müəllifi və rəhbəri isə Ramiz Alıyevdir**.

Layihə ilə bağlı R.Alıyev bildirib ki, serial yeni formatda, lakin yeni adla davam edəcək: "Bu gün bu mövzuda maarifləndirici filmlərə və seriallara çox böyük ehtiyac var. Hər birimiz bir yumruq kimi birləşərək hüquq mühafizə orqanlarının, xüsusən də polisin yanında olub narkomaniya ilə birgə mübarizə aparmalıyıq. Məhz bu səbəbdən də düşündük ki, layihə davam etdirilməlidir.

Serial ötən mövsüm olduğu kimi yenə də ATV telekanalında yayımlanacaq. Düşünürük ki, 10-12 bölüm ərsəyə gətirə biləcəyik. Çəkilişlərin noyabr ayından başlanılması və yanvar-fevral ayından etibarən efirə getməsi planlaşdırılır".

*Natiq Cavadov*

### Sentyabr ayının 15-dən 23-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən 395 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 46 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 384, o cümlədən borclu şəxs qismində axtarışda olan 257 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 13 yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 13 nəfər ölmüş, 6 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 259 fakt müəyyən edilmişdir.

## XƏZRİ sizi gözləyir




**Daxili İşlər Nazirliyinə bilavasitə tabe olan "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində standart otaq üçün bir günlük xərcin 2-ci mövsüm üzrə 16 sentyabr 2021-ci il-31 may 2022-ci il tarixlərə qiymətləri (daxili işlər orqanlarının əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)**

**Qeyd:** 1. "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

2. Daxili Qoşunların hərbi qulluqçuları (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş əsaslarla Mərkəzə yollayış almaq hüququna malikdirlər.

3. Bir günlük xərc tək polis əməkdaşı üçün 22,50 manat (iki nəfərlik nömrəni tək tutduqda 37,50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 67,50 manat, özü və 6-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 62,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 90,00 manat və onlarla birgə 6-12 yaşadək uşağa əlavə yer verildikdə 115,00 manat təşkil edir.

4. 6 yaşadək uşaqların qalması ödənişsizdir.

5. Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, akvaparkdan, trenajorlardan, mini-futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir. Digər bütün xidmətlər ödənişlidir.

6. Karantin rejimi dövründə 18 yaşdan yuxarı şəxslərin COVID-19 pasportunun təqdim etməsi mütləqdir.

**Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. Mərkəzə "Koroğlu" metro stansiyasından 171 nömrəli avtobus gəlir.**
**Telefon: (+99412) 554-47-60;**
**Mobil telefon: (+99450) 291-15-51; (+99455) 291-15-51;**
**Faks: (+99412) 453-63-33;**
**Poçt indeksi: AZ1090**
**Veb-sayt: www.khazri.mia.gov.az**
**E-poçt: info@khazri.mia.gov.az**

| 16 sentyabr 2021-ci il - 31 may 2022-ci il (2 nəfərlik standart otağın güzəştsiz qiyməti : iki nəfər qaldıqda 180 manat, bir nəfər tək qaldıqda 150 manat) | | |
|---|---|---|
| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 22,50 manat | 37,50 manat |
| Onun ailə üzvü (50% güzəştlə) | 45,00 manat | 75,00 manat |
| Polis əməkdaşı ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 25,00 manat | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 90,00 manat | 150,00 manat |
| Valideyni ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 50,00 manat | |
| 12 yaşdan yuxarı şəxsə yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 70,00 manat | |

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10020
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 19:30
Qiyməti 40 qəpik